UOT 371.4

***İradə Böyükağa qızı Əmirəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

# NİKOLAY DOBROLYUBOV MÜƏLLİM ŞƏXSİYYƏTİ HAQQINDA

***Ирада Боюкага гызы Амиралиева***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования*
*АзербайджанскойРеспублики*

# НИКОЛАЙ ДОБРОЛЮБОВ О ЛИЧНОСТИ УЧИТЕЛЯ

***Irada Boyukagha Amiraliyeva***
*doctor of philosophy in pedagogy*
*leading scientific worker at the*
*Institute of Education of the Republic of Azerbaijan*

# NIKOLAY DOBROLYUBOV ABOUT A TEACHER’S PERSONALITY

**Xülasə**. Müəllim şəxsiyyətinə dair fikirlər saysız-hesabsızdır. Onların hamısının üzərində dayanmaq xeyli vaxt apardı. Bu məqalədə məqsədimiz N.A. Dobrolyubovun fikirlərini diqqət mərkəzinə gətirməkdən ibarətdir.
***Açar sözlər***: *müəllim, müəllim şəxsiyyəti, pedaqoji ideyalar, müəllimin nüfuzu, şagird*

**Резюме**. Существуют многочисленные мнения относительно личности учителя. Сосредоточивание на всех них заняло бы много времени. Наша задача в этой статье привлечение внимания к размышлениям Н.А. Добролюбова.
***Ключевые слова***: *учитель, личность учителя, педагогические идеи, репутация учителя, ученик*

**Summary**._There are numerous opinions regarding a teacher’s personality. Focusing on all of them would take a long time. Our goal in this article is to draw attention to the ideas of N.A. Dobrolyubov.
***Key words***: *teacher, teacher’s personality, pedagogical ideas, reputation of a teacher, pupil*

Müəyyən dövrlər (mövhumatın tüğyan etdiyi zamanlar) nəzərə alınmasa, müəllim şəxsiyyətinə həmişə yüksək qiymət verilib, onun nüfuzu gözlənilib. Bu, təbiidir. Müəllim öz mənafeyini güdmədən, böyüyən nəslin təlim və tərbiyəsi üçün çalışıb, gecəsini-gündüzünə qatıb, bəzən məhrumiyyətlərlə üzləşib, maneələrlə qarşılaşıb, lakin yolundan, əqidəsindən dönməyib.

Həzrəti Məhəmməd peyğəmbər deyirdi ki, elm çöldə dostumuz, tənhalıqda munisimiz, köməksizlikdə yoldaşımız, xoşbəxtlik yolunu göstərənimiz, dostlar arasında zinətimiz, düşmənlər arasında isə silahımızdır. Peyğəmbərin qənaətincə, "Kimdən bilik öyrənirsinizsə, ona hörmət edin, ona qarşı mehriban olun. Kimə bilik öyrədirsinizsə, ona qarşı da mehriban olun".

Məlum olduğu kimi, Aristotel Makedoniyalı İsgəndərin müəllimi olmuşdu. Öz müəllimini sonsuz hörmət və məhəbbətlə xatırlayan fateh deyirdi: "Valideynlərim məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı".

Nizami Gəncəvi müəllimi günəşə oxşadırdı. L.N .Tolstoyun fikrincə, öz işini sevən müəllim yaxşı müəllimdir, uşaqları və fənnini sevən müəllim də əla müəllimdir.

Müəllim peşəsinə yüksək qiymət verən Nəsirəddin Tusi deyirdi: "Varlıqları ən aşağı dərəcədən kainatın ən şərəfli mərtəbəsinə qaldıran sənətdən daha şərəflisi nə ola bilər?".

Müəllim şəxsiyyətinə Mustafa Kamal Atatürk də yüksək dəyər verirdi. Türkiyə Respublikasının yaradıcısı və ilk prezidenti buyururdu: "Milləti yalnız və yalnız müəllimləri xilas edə bilər. Bir cəmiyyətin millət ola bilməsi üçün mütləq müəllimlərə ehtiyacı var: onlar cəmiyyəti həqiqi bir millət halına gətirirlər".

Ümummilli Liderimiz Heydər Əliyev müəllimlik peşəsindən söz düşəndə deyərdi: "Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəllim şəxsiyyətinə dair fikirləri də son dərəcə önəmlidir. Diqqət yetirək: "Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur".

Müəllim şəxsiyyətinə dair fikirlər saysız-hesabsızdır. Onların hamısının üzərində dayanmaq xeyli vaxt aparardı. Bu məqalədə məqsədimiz N.A. Dobrolyubovun fikirlərini diqqət mərkəzinə gətirməkdən ibarətdir.

1836-cı il fevralın 5-də Nijni Novqorodda anadan olan Nikolay Dobrolyubov 1861-ci il noyabrın 30-da Sankt-Peterburqda dünyasını dəyişmişdir. Bu böyük şəxsiyyət vur-tut 25 il ömür sürmüşdür. Fəqət qısa ömründə zəngin irs qoyub getmiş, məşhur ədəbiyyat tənqidçisi, jurnalist, şair, yazıçı, filosof, publisist kimi tanınmışdır.

Böyük mütəfəkkirin pedaqoji əsərləri xüsusilə diqqəti cəlb edir. Respublikamızda hələ 1963-cü ildə onun "Seçilmiş pedaqoji əsərləri" Azərbaycan dilində "Azərnəşr"də işıq üzü görmüşdür.

N.A. Dobrolyubovun pedaqoji ideyaları N.Q. Çernışevskinin baxışları ilə həmahəng səslənirdi. L.N. Tolstoyun "azad tərbiyə" nəzəriyyəsini isə, tənqid edirdi. Bundan başqa, uşağın həyata hazırlanmasının qarşısını alan, "daxili insan" konsepsiyasını məhv edən mövcud tərbiyə sisteminə qarşı çıxırdı.

O, təhsil sistemində aparılacaq islahatların səmərəliliyini Rusiyanın bütün ictimai həyatında köklü yenidənqurma işlərinin aparılmasında görürdü. N.A. Dobrolyubovun qənaətincə, yeni cəmiyyətdə tərbiyə olunanda insan təbiətinin ləyaqətini qoruyacaq, yüksək mənəvi əqidəyə malik, hərtərəfli inkişaf etmiş yeni müəllim meydana gələcək.

Nikolay Aleksandroviç müəllimin alçaldıcı maddi-hüquqi vəziyyətini tənqid edirdi. O, müəllimi qabaqcıl ideyalar tərənnümçüsü kimi görmək istəyirdi. Müəllimin əqidəsinə və mənəvi simasına yüksək dəyər verirdi. Dobrolyubova görə, müəllim uşaqlara nümunə olmalıdır. Onun "Tərbiyədə nüfuzun əhəmiyyəti haqqında" (1853-1858), "Tərbiyənin əsas qanunları" (1859), "Müəllim ideala xidmət etməlidir" və s. əsərlərində müəllim şəxsiyyətinə dair faydalı fikirlər vardır.

Biz N.A. Dobrolyubovun "Seçilmiş pedaqoji əsərləri"nə daxil edilmiş "Müəllim şagirdlər üçün ideal adam olmalıdır" məqaləsi əsasında onun müəllim şəxsiyyətinə verdiyi dəyərlər üzərində dayanmağı məqsədəuyğun hesab etdik.

Nikolay Aleksandroviç şagirdlərin ləyaqətli müəllimi özlərinə nümunə götürmələrini təbii sanır. Həmin məqalədə belə fikir öz əksini tapmışdır: "Gənclik coşqun idealizə etməyə, ümumiyyətlə, meyllidir. Buna görə uşaqlar yaşadıqları qısa müddətdə ülvilik haqqında əldə etmiş olduqları bütün anlayışları bir yerə cəmləşdirməyi sevir və bunları öz ideallarının həyata keçirilməsini görmək istədikləri hər hansı bir şəxsiyyətdə edirlər. Müəllim hər kəsdən daha tez onların idealı olur, onlar bütün xeyirxahlığın müəllimdə birləşdiyini görməyə çalışırlar" [1, s. 248].

Aşağıdakı fikir də maraqlıdır: "Müəllim şagird üçün heyranedici təəccüb oyadan bəşəri kamilliyin ali nümunəsidir. Kiçik bir qız öz kitabında ətrafı karandaşla dövrəyə alınmış yeri nəvazişlə mənə göstərərək dedi: "Bax, bizim müəllim buraya barmağı ilə toxunmuşdur" [1, s. 249].

Son dərəcə heyrətdoğuracaq bir həqiqətdir. Müəllimin nüfuzu haqqında hər şey aydın görünür.

Müəllim özünü təcrübəli, savadlı, metodik baxımdan hazırlıqlı göstərdiyinə, etik qaydaları gözlədiyinə, təhsilalanlara münasibətdə həssas, qayğıkeş, obyektiv, prinsipial olduğu üçün şagirddə böyük heyrət və sevgi, hörmət hissləri yaratmışdır.

N.A. Dobrolyubov məsləhət görürdü: "Şagirdlərin müəllimə ali bir varlıq kimi baxdıqlarını müəllim nə qədər çox yadda saxlasa, - onun uşaqlara təsiri bir o qədər çox olar, - onun hər tərifi bir o qədər də fərəhləndirici olar, hər məzəmməti uşağın qəlbinə bir o qədər dərin nüfuz

edər, nəticədə isə bütün tərbiyə işi müqayisə edilməyəcək dərəcədə faydalı olar" [1, s. 249].

Görkəmli mütəfəkkir öz işinin öhdəsindən gələ bilməyən müəllimləri isə tənqid atəşinə tuturdu. Diqqət yetirək: "Vay o müəllimin halına ki, öz davranışında ehtiyatsız ola, şagirdlərin qarşısında öz ehtiraslarını büruzə verə və onların yanında hörmətdən düşə. Onlar artıq belə müəllimə adi bir adam kimi baxırlar, onun göstərişlərini əsəbilik, cəza tədbirlərini isə qisas vasitəsi hesab edirlər. onun haqqında ailədə danışır, əxlaqi ləyaqətinə şübhə edərək başlarını bulayırlar. Kimsə deyirdi: "Müəllimlə şagirdlər arasında ən dəhşətli münasibət müəllimin biliyi haqqında onlarda şübhə əmələ gəlməsidir" [1, s. 249].

Nikolay Aleksandroviçin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də müəllimin əxlaqi ləyaqəti məsələsidir. Bu xüsusda o yazmışdır: "Uşaqların şübhəsi müəllimin əxlaqi ləyaqətinə aid olduqda onun vəziyyəti daha dəhşətli olur. Az da olsa əxlaqi etimad itdikdə və ya müəyyən dərəcədə sarsıldıqda müəllimin sözü də öz qüvvəsini itirir – onun tərifi və məzəmməti əhəmiyyətsiz olur, ona qarşı məhəbbət və hörmət üzündən əvvəllərdə həvəs və şadlıqla görülən iş sonra məktəb əsarəti, cəza və məcburiyyət vasitəsi ilə görülür" [1, s. 249].

Dobrolyubov müəllimliyin çətin peşə olmasına diqqəti yönəldir və müəllimin qarşısında dayanan vəzifələrə münasibət bildirir. Fikir verək: "Müəllim olmaq üçün çox şey lazımdır. Bizim işimiz – *insan əlinin işidir*, təəssüflər olsun ki, nəticə, əksər halda bizim həqiqi arzularımıza tam uyğun gəlmir. Lakin əgər biz özümüz cəsarət edib ən uca varlığın rəhminə ümid ediriksə, onda heç vaxt unutmamalıyıq ki, bizə xüsusilə bu sözlər aiddir: "*kiçik uşaqlardan lap birini çaşdıranın vay halına*" yaxşı sözlərdir, ancaq misal daha yaxşıdır və bizim fəaliyyətimiz nöqsandan heç vaxt azad ola bilməsə də, çalışa bilərik və çalışmalıyıq ki, bari qəlbimizdə gəzdirdiyimiz ilahi surət fəaliyyətimizdə bir qədər əks olunsun" [1, s. 250].

Əsrlər, illər keçib. Fəqət Nikolay Aleksandroviç Dobrolyubovun pedaqoji ideyaları yenə gərəklidir, faydalıdır.

**Problemin aktuallığı**. N.A. Dobrolyubovun pedaqoji əsərləri arasından onun müəllim şəxsiyyətinə dair qənaətlərinin seçilməsi aktuallıq daşımaqdadır.

**Problemin yeniliyi**. N.A. Dobrolyubovun müəllim şəxsiyyətinə dair fikirləri diqqət mərkəzinə gəlir.

**Problemin praktik əhəmiyyəti**. Magistrlər, doktorant və dissertantlar məqalədən faydalanacaqlar.

**Ədəbiyyat:**

1. N.A. Dobrolyubov. Seçilmiş pedaqoji əsərləri. -Bakı: Azərnəşr, -1963, 592 s.

**E-mail:** amiraliyeva_i@mail.ru
**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok* .**L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 15.08.2021